

# Tumurcuqlar çiçəkləyib!..

(esse)

Yazdı...

Bu yaz bir başqa yazdı...

Bayaqdan bəri baxışlarım ağacların budaqlarında gördüyüm çiçəkləmiş tumurcuqlardan üzülmür. Ağacı budaqlara, budağı tumurcuqlara - çiçəklərə Vətən bilirəm. Vətənə bunca bağlılıq könül xoşluğuna dönür...

Gözlərimizdən könlümüzə, könlümüzdən ömrümüzə süzülən "Gözəlim Bahar" dediyimiz yaz fəslidi. Gəlişi də şahanədi, yerişi-duruşu da, bənövşə təbəssümü də, nərgiz baxışı da,... Məmməd İlqar demişkən, nə göz doyur, nə könül əl çəkir...

Niyyət tutub yaz yağışına ovuc açarlar. Bu ilki yazın yağışına ovuc açanların dönməz niyyəti eynidi: torpaqlarımız işğaldan azad edilsin. O yerlərdə nərgiz də, bənövşə də, quzuqulağı da, dağaran da, yemlik də, ... illərin o üzündə necə boy göstərirdisə, eləcə boy göstərsin. Tufarqanlı Abbasın misralarıyla oxşayaq bənövşəni...

Dağların daş sinəsinin, çeşmələrin nəfəsinin, bulaqların səsinin, ağacların budaqlarının, budaqların yarpaqlarının, çəmənlərin yanaqlarının,... yaralarına nərgizdən məlhəm diləyək: kərəm elə, bu yaraları titrək ləçəyinlə sarı, nərgizim!.. Hərdən əsən, hərdən kəsən mehi qılığa tutaq: yaralara sarğı ol, yaraların sarğısı ol!..

Ovcumuz yaz yağışıyla dolunca baxışlarımız göy üzünün göylüyünə sığal çəkə...

Məcrasına sığmayan çaylar urvatsız kör-kötüyü uzaqlaşdıra. Göy üzündə görünən göyqurşağını göylərin yerlərə gözaydınlığı bilək: "Gözləriniz aydın, buludlar dağıldı, qada sovuşdu. Ağaclarınızın tumurcuqları çiçəkləyib. Təbiət möhtəşəmliklə gözəlləşir..."...

Ağacların tumurcuqları Cocuq Mərcanlıda da yəqin çiçəkləyib. Tumurcuqların çiçəkləməsi, çiçəklərin qədəri göz doydurur, duruşu, düzümü könül açır. Bu ecazkar düzümün vəsfinə uyarlı söz tapmaq mümkünmü? Çiçəklər yeri göyə bənd eləyəcək, göyü yerə. Bu gözəlliyi tabloya köçürməyə Səttar fırçası gərəkdi...

Cocuq Mərcanlının işıqları yanır... Cocuq Mərcanlıda evlər tikilir...

Cocuq Mərcanlıda cocuq mərcanlılar baxışlarını qəribsəmiş ağaclarının çiçəklərindən üzə bilmir. Bu çiçəklər 25 ilin həsrətini bitirdi. 25 ilin can üzən, ruh sarsıdan sıxıntıları ömürlərdən xəzan çağı şah budaqdan saralmış yarpaqlar necə düşürsə, eləcə düşdü...

Ağacların tumurcuqları çiçəkləyib...

Yaxınlarda Şuşada, Cıdır düzündə, İsa bulağında,... tumurcuqlardan boy göstərən çiçəklər Azərbaycan əsgərinin ayaq səslərinə boylanacaq. "Gəldinizmi?" - sorğusunun doğmalığı yerə-göyə sığmayan sevincə bürünəcək. Bu ünsiyyəti ilahi ünsiyyət biləcəyik!..

...Bu ilki yazda ötən ilki yazın qoxusu var...

Gen dərələr sellənəcək, Ana Torpaq çəmən-çəmən güllənəcək, ağacların çiçəyi də, çiçəklərin göyçəyi də, göyçək-göyçək gülümsəyən çiçəklərin ləçəkləri də dillənəcək: tumurcuqlar gələn il daha gözəl çiçəkləyəcək!..

Təbiətə baxıram, cəmiyyəti düşünürəm. Əsl vətəndaş Vətənə varlığıyla bağlanandı. Tumurcuqların çiçəkləməsi təbiəti necə gözəlləşdirirsə, əsl vətəndaşlar da təbiəti elə gözəlləşdirir...

Bu yaz bir başqa yazdı. Tumurcuqlar bu il o qədər ecazkarlıqla çiçəkləyib ki!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**